AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

19 DEKABR 2024-cü il | CÜMƏ AXŞAMI | № 280 (8038) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ

Sabitlik adası, regionun lider ölkəsi

Ölkəmizin beynəlxalq nüfuzunun artması, dünya siyasətində mövqeyinin möhkəmlənməsi, milli həmrəyliyin, başqa sözlə, xalq-iqtidar birliyinin gücənməsi Azərbaycanın regional güc mərkəzi kimi strateji hədəflərə doğru əmin addımlarla irəlilədiyini nümayiş etdirir. Bu fakt inkaredilməzdir ki, müstəqil respublikamız dövrün çağırışlarını yüksək səviyyədə yerinə yetirir və davamlı uğurları ilə diqqətdə qalır. Azərbaycanda aparılan uğurlu, məqsədyönlü siyasət nəticəsində ildən-ilə daha yüksək inkişaf göstəriciləri nümayiş etdirən iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəldilməsinə, yoxsulluğun azaldılmasına əlverişli şərait yaradıb, əhalinin etibarlı sosial müdafiəsini təmin edib.

Dinamik inkişaf mərhələsində olan Azərbaycanın əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, şaxələndirilməsi, əhalinin rifahının beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, təhsilin, elmin və iqtisadiyyatın vəhdəti fonunda həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

(davamı 5-ci səhifədə)

Sabitlik adası, regionun lider ölkəsi

(əvvəli 1-ci səhifədə)

Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların tam həcmdə və vaxtında yerinə yetirilməsi əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Heç bir beynəlxalq qurumdan və milli dövlətdən asılı olmayan Azərbaycan artıq regional aktordan qlobal tərəfdaşa yüksəlib.

Bütün bunların nəticəsidir ki, Azərbaycan müasir beynəlxalq münasibətlər sistemi və dünya siyasətinin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləyir. Həyata keçirilən rasional və praqmatik xarici siyasət kursu sayəsində bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın hərbi-siyasi, iqtisadi, ekoloji təhlükəsizliyinin təmin olunmasına fundamental strateji töhfələr bəxş edən regional güc kimi dəyərləndirir. Bu isə belə deməyə əsas verir ki, Azərbaycan regionun təhlükəsizlik qarantı və inkişaf mənbəyi qismində çıxış edir. Beynəlxalq təşkilatlarla və müxtəlif ölkələrlə iqtisadi əməkdaşlıqlar, o cümlədən ticarət müqavilələri, enerji və nəqliyyat layihələri ölkənin qlobal iqtisadiyyatda mövqeyini daha da gücləndirir. Bu, Azərbaycanın iqtisadi inkişaf modelinin davamlı və açıq xarakterini sübut edir.

Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Büdcə dövlətimizin imkanlarını əks etdirir. Heç bir yerdən, heç bir yardım almırıq, Azərbaycan son illərdə rəqəmsal iqtisadiyyat və innovasiya sahəsində də ciddi addımlar atmağa başlayıb. İnformasiya və kommunikasiya texnologiyaları sahəsinin inkişafı ölkədə rəqəmsal infrastrukturun genişlənməsinə, rəqəmsal xidmətlərin yaradılmasına və innovativ layihələrin həyata keçirilməsinə şərait yaradır. Azərbaycan özünün telekomunikasiya peyki olan azsaylı ölkələr sırasındadır. "Azerspace 1"in orbitə buraxılması bir daha təsdiqlədi ki, bu gün Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, tolerant, idman ölkəsi, eyni zamanda innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları və kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınır. Sözsüz ki, bu, Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətdir. Eyni zamanda Azərbaycanda tikinti və şəhərsalma sahəsində genişmiqyaslı layihələr həyata keçirilir. Bakı şəhərində, eləcə də regionlarda infrastrukturun inkişaf etdirilməsi, yeni sənaye parklarının və texnoparkların yaradılması iqtisadi potensialın artmasına və iş yerlərinin açılmasına imkan verir.

Ölkəmiz tərəfindən reallaşdırılan müstəqil və balanslaşdırılmış enerji siyasəti regionun və regionətrafı coğrafiyanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Azərbaycanı dünya bazarında aparıcı ixracatçılardan birinə çevirir.

Azərbaycan dünyada azsaylı ölkələrdəndir ki, həssas və mürəkkəb bölgədə yerləşməsinə baxmayaraq, həm region, həm də dünya ölkələri ilə yüksək səviyyəli əlaqələrə malikdir. Bu gün Prezident İlham Əliyev dünyanın arzuolunan və rəğbət bəslənilən liderlərindən biridir. Müasir dövrdə Prezident İlham Əliyev bütün platformalarda Azərbaycanın haqq mövqeyini uğurla müdafiə edir. Ölkənin sabit siyasi mühiti və investisiya üçün əlverişli şəraiti beynəlxalq sərmayədarları cəlb etməkdə mühüm rol oynayır. Avropa, Asiya və Yaxın Şərq arasında yerləşən Azərbaycan Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində hazırda dünyanın enerji təhlükəsizliyinə mühüm töhfələr verən dövlətə çevrilib. Xarici sərmayələrin, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir. Ölkəmizdə hökm sürən sabitlik və proqnozlaşdırılan vəziyyət, eyni zamanda Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi xarici investorların münasibətini təbii olaraq daha da yaxşılaşdırıb. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır.



Azərbaycan Prezident İlham Əliyevin liderliyi ilə sabitlik adasına, təhlükəsizlik məkanına, inkişaf diyarına çevrilib. Dövlət başçısının vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir: "Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq və sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir". Sabitlik və təhlükəsizliyimizin təminatçısı xalq və onun hakimiyyətlə olan monolit birliyidir, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın Prezident İlham Əliyevə olan inamı, etimadı və etibarı ilə bağlıdır.

Azərbaycan dünyada nümunəvi inkişaf modelinə və örnək milli tərəqqi yoluna malik müstəqil ölkə kimi tanınır. Tarixi nailiyyətlər qazanaraq dünyada söz və nüfuz sahibinə çevrilməsi milli maraqlara, dövrün tələblərinə və çağırışlarına əsaslanan daxili və xarici siyasətin həyata keçirilməsi sayəsində mümkün olub. "Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq". Bu fikirləri Prezident İlham Əliyev iqtisadi məsələlərə həsr olunmuş müşavirədə çıxışında deyib. Ölkəmizin dinamik iqtisadi inkişafı beynəlxalq maliyyə institutları, aparıcı strateji araşdırma mərkəzləri və nüfuzlu ekspertlər tərəfindən yüksək qiymətləndirilir.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. İqtisadiyyatımızın müasir dövrün mənfi təsirlərinə qarşı yüksək dayanıqlılıq nümayiş etdirərək davamlı inkişafı Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində yaradılmış siyasi, makroiqtisadi sabitlik, vaxtında aparılan islahatlar, biznes mühitinin təkmilləşdirilməsi sayəsində mümkün olmuşdur.

Xalqımızın çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin ən parlaq səhifəsi Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpasına nail olmasıdır. Bu, müstəsna siyasi hadisə bənzəri olmayan Zəfər salnaməsi, həmçinin Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin böyük siyasətinin real nəticəsidir. Vətən müharibəsi təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpasını deyil, eyni zamanda həm Cənubi Qafqaz regionunda, həm də Avrasiyada yeni geostrateji reallıqların təşəkkülünə səbəb olub. İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu bir qədər də möhkəmləndirdi. İndi qalib ölkə kimi rəsmi Bakı qaydaları özü müəyyənləşdirir, diktə edir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təkliflərini ortaya qoyur. Bütün görüş və çıxışlarında, müsahibələrində regionda yaranan qarşılıqlı faydalı əməkdaşlıq imkanlarından söz açan Prezident İlham Əliyev yeni reallıqların çoxşaxəli münasibətlərin daha dinamik inkişafına xidmət göstərdiyini bəyan edir.

Ölkəmizdə sabitliyin təminatçısı xalq-iqtidar birliyi, Liderin xalqın maraqlarına, rifahına və mənafeyinə əsaslanan siyasəti, xalqın isə öz Liderinə qətiyyətli inamıdır. Azərbaycanın innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu qarşıya qoyulan əsas hədəfləri uğurla reallaşdırdığını təsdiqləyir. Bu gün ölkəmiz dünyada nümunəvi inkişaf modelinə və milli tərəqqi yoluna malik müstəqil respublika kimi tanınır. Azərbaycanın tarixi nailiyyətlər qazanaraq dünyada söz və nüfuz sahibinə çevrilməsi milli maraqlara, dövrün tələblərinə və çağırışlarına əsaslanan daxili və xarici siyasətin həyata keçirilməsi sayəsində mümkün olub. Müstəqil və milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycanın regional liderə - bölgədə güc mərkəzinə, dünya siyasətində qüdrətli və nüfuzlu milli subyektə çevrilməsinə səbəb olub. Azərbaycanın təşəbbüsü və liderliyi ilə mühüm nəqliyyat və enerji layihələrinin reallaşdırılması, ikitərəfli və çoxşaxəli formatda əməkdaşlıq platformalarının yaradılması ölkəmizə mühüm iqtisadi mənfəət və siyasi dividendlər qazandırıb. Respublikamızın beynəlxalq təşkilatlarda uğurlu fəaliyyəti Azərbaycana, şəxsən cənab İlham Əliyevə olan böyük inam və etimadın ifadəsi, dövlətimizin geostrateji prestijinin göstəricisidir. Bütün bunlar, Azərbaycanın qarşıdakı illərdə daha da güclənməsinə, onun qüdrətli ölkəyə çevrilməsinə imkan yaradır.

Mustafa KAMAL,
"Respublika".